**UOT 94; UOT 94(479.24)**

**ELMİN MƏMMƏDLİ**
*AMEA-nın Tarix və Etnologiya İnstitutunun doktorantı*
**mammadlielmin@gmail.com**

# ALBANİYA VƏ İBERİYA III MİTRİDAT MÜHARİBƏSİ DÖVRÜNDƏ (e.ə. 74-64)

DOI: https://doi.org/10.36719/2708-065X/106/121-126

*Məqalədə tədqiqat obyektini eramızdan əvvəl I əsrdə III Mitridat müharibəsi zamanı Roma sərkərdələri L.Lukkulun və Q.Pompeyin Cənubi Qafqaza ekspedisiyaları təşkil edir. Azərbaycan tarixşünaslığında bu məsələyə, xüsusən də İberiya çarlığının iştirakı lazımi səviyyədə nəzərdən keçirilmədiyindən qədim mənbələrdən əldə edilən məlumatlar əsasında Albaniya və İberiya xalqlarının yadelli işğalçılara qarşı birgə mübarizəsi təhlil edilmişdir. Bundan əlavə, gürcü tarixçilərinin e.ə. 1-ci əsrin ortalarında Albaniyada dövlətçiliyin olmaması haqqında tezisi təkzib edildi.*

*Açar sözlər:* Mitridat müharibəsi, Roma dövləti, Albaniya, İberiya, Oroys, Artak.

***Giriş***. Parfiya hökmdarı II Mitridatın (e.ə. 123-87) ölümündən sonra Ön Asiyada və Cənubi Qafqazda qüvvələr nisbətində əsaslı dəyişikliklər yaranmağa bağladı. Parfiyanın zəifləməsindən istifadə edən Pont hökmdarı Mitridat VI Evpator, onun qohumu, mənbələrdə Mada (Midiya) və Parfiya Arşaki nəslinin nümayəndəsi olaraq adlandırılan II Tiqran geniş miqyaslı işğallara başlayaraq Roma dövlətinin Kiçik Asiyadakı əyalətləri üçün də ciddi təhlükəyə çevrildi. Roma ilə I (e.ə. 89-85) və II (e.ə 83-82) müharibədə uğur qazanmayan VI Mitridat (e.ə. 120-63) e.ə I əsrin 70-ci illərində Roma dövlətində yaranmış gərgin vəziyyətdən istifadə edərək ona qarşı 10 il davam edən yeni bir müharibəyə başladı. III Mitridat müharibəsi dolayı olsa da, Albaniya və İberiyanın da savaşa cəlb olunması və ilk dəfə olaraq Cənubi Qafqazın Romanın nüfuz dairəsinə qatılması ilə nəticələndi.

Azərbaycan və Gürcüstan tarixşünaslığında Albaniya və İberiya dövlətlərinin yaranması bir qayda olaraq Makedoniyalı İsgəndərin imperiyasının parçalanmasından sonrakı dövrlə əlaqələndirilir (1, 387-389; 2, 158-162). Buna rəğmən e.ə. IV yüzilliyin sonundan e.ə. I yüzilliyin 60-cı illərinə qədər bu dövlətlərin siyasi tarixi haqqında dövrümüzə yazılı qaynaqlarda az məlumat gəlib çatmışdır və məhz bu səbəbdən qeyd olunan dövr Albaniya və İberiya dövlətlərinin tarixinin qaranlıq dövrü hesab olunur.

Heç şübhə doğurmur ki, belə vəziyyət Cənubi Qafqazın qədim Yunan-Roma tarixçi və coğrafiyaçılarının maraq dairəsindən kənarda qalması ilə bağlı olmuşdur. Məlum olduğu kimi, yunan və Roma hökmdar və sərkərdələrinin fəaliyyətini təsvir edən antik yazarların əsərlərinə Cənubi Qafqazla bağlı məlumatlar da yalnız həmin sərkərdələrin bölgəyə yürüşləri ilə bağlı olaraq yol tapmışdır. Məhz bu səbəbdəndir ki, Əhəməni-Yunan, İsgəndərin Şərq yürüşü, Lukull, Pompeyin və başqa sərkərdələrin Şərq yürüşləri xaricində antik qaynaqlarda Cənubi Qafqaz haqqında məlumatlara rast gəlmək mümkün deyildir.

Dövrümüzə məhdud sayda gəlib çatmış yerli qaynaqlarda, məsələn, M. Kalankatlının “Alban tarixi”, Mrovel Leontinin “Gürcü çarlarının həyatı” salnaməsində də alban və iberlərin mənşəyi istisna olmaqla, Albaniya və İberiyanın e.ə. IV- e.ə. I yüzillik tarixi ilə bağlı tutarlı bir məlumata təsadüf olunmur (3, 16-18; 4, 13-17).

E.ə. I yüzilliyin 80-70-ci illərində Roma imperiyasında yaranmış daxili siyasi böhran və üsyanlardan istifadə edən Pont hökmdarı VI Mitridat və II Tiqran Parfiyanın zəifləməsindən də yararlanaraq, xeyli ərazilər ələ keçirərək Şərqi Aralıq dənizi sahillərində Roma üçün ciddi təhlükəyə çevrilmişdilər (5, 142-160). Bu təhlükəni aradan qaldırmaq üçün Roma Senatının qərarı ilə Şərq yürüşünə başçılıq edən Lukull və Pompeyin VI Mitridat və II Tiqrana qarşı savaşlarında Cənubi Qafqaz xalqları – albanlar və iberlər də yaxından iştirak edirdilər. Lukull və Pompeyə qarşı müharibədə alban və iberlərin iştirakı haqqında Plutarx, Dion Kassi, Appian, Strabon və digər antik yazarların əsərlərində maraqlı

məlumatlar öz əksini tapmış və bu dövrün hadisələri tarixşünaslıqda müəyyən qədər araşdırılmışdır. (6, 83-126).

E.ə. I yüzilin 60-cı illərində Romanın Cənubi Qafqaz istiqamətində işğalçı siyasəti məsələsi və bu işğala qarşı albanların və atropatenlilərin mübarizəsi Azərbaycan tarixşünaslığında İ.Əliyev (17), K.Q.Əliyev (18), A.H.Fazili (19), İ.Ş.Cavadov (20) və digərləri tərəfindən müəyyən qədər tədqiq olunmuşdur. Lakin həmin hadisələrdə alban və iberlərin birlikdə mübarizəsi Vətən tarixşünaslığında demək olar ki, yetərincə tədqiq olunmadığından təqdim olunan məqalə elmi aktuallıq kəsb edir.

Təqdim olunan məqalədə bu hadisələrə bir daha nəzər salınmış və tarixşünaslıqda yer almış bəzi fikir və mülahizələrə tənqidi yanaşma ortaya qoyulmuşdur.

***III Mitridat müharibəsinin başlaması və Lukull.*** E.ə. I yüzilliyin 90-80-ci illərində Ön Asiya və Şərqi Aralıq dənizi sahilləri uğrunda Roma dövləti, Parfiya, Ermənistan çarlığı (Bu çarlığın indiki Ermənistanda yaşayan hay toplumuna heç bir aidiyyatı yoxdur) və Pont dövlətləri arasında gərgin mübarizə gedirdi. Qüdrətli Parfiya hökmdarı II Mitridatın (123-87) hakimiyyətinin sonlarına doğru Parfiyanın zəifləməsindən yararlanan Pont hökmdarı VI Mitridat və II Tiqran regionda əsas söz sahiblərinə çevrilməkdə idilər. II Tiqran VI Mitridatın qızı Kleopatra ilə evləndikdən sonra, nikah diplomatiyasından bacarıqla istifadə edərək öz qızını Atropatena hökmdarı Mitridata ərə verməklə hərbi-siyasi nüfuzunu xeyli möhkəmləndirmişdi (1, 284).

Pont çarı VI Mitridat və onun müttəfiqi II Tiqranın e.ə. I yüzilliyin 90-70-ci illərində Kiçik Asiyaya yürüşləri və bir sıra vilayətlərin ələ keçirilməsi Roma dövlətini bölgə uğrunda fəal mübarizəyə qoşulmağa vadar etdi (5, 160-161; 7, 37).

E.ə. I yüzilliyin 70-ci illərində Roma dövlətində başlanmış vətəndaş müharibəsi, Sulla diktaturasınınm yaratdığı gərgin vəziyyət, Lepid və Spartak üsyanı, İspaniyada Sertori ilə başlamış müharibədən yararlanan VI Mitridat Romaya qarşı 10 il davam edən (74-64) yeni müharibəyə başladı (5, 161). 100 minlik piyada, 16 min süvari qoşun, 100 döyüş arabası və 400 gəmidən ibarət donanma toplayan Mitridat İtalyadan əsas ordunun gəlişinə qədər Kalxedon və Kizik qalalarını tutmağa cəhd etsə də buna nail ola bilmədi (5, 161; 9, 556-557). Senatın əmri ilə göndərilən Sisini Lukull e.ə. 74-cü ildə Mitridatı məğlubiyyətə uğratdı və Kizil qalasının mühasirəsindən əl çəkən Mitridat Pont ərazisinə qayıtmağa məcbur oldu. Onu təqib edən Roma qoşunları e.ə. 72-ci ildə Kabir şəhəri yaxınlığında növbəti qələbə qazanaraq Pont ərazisini ələ keçirdilər və VI Mitridat canını qurtararaq Tiqranın yanına qaçdı (9, 562).

Lukullun VI Mitridatı təslim etmək tələbinin II Tiqran tərəfindən rədd edilməsi Roma ilə yeni müharibənin başlamasına səbəb oldu. E.ə. 69-cu ildə baş vermiş həlledici döyüşdə Cənubi Qafqazın bir çox dövlətləri və etnosları da iştirak edirdilər. Bu məsələyə toxunan Plutarx yazırdı: "Döyüş yerinə öz ordularının başında Midiya və Adiaben çarları, Babilistan dənizi sahilindən ərəb qoşunları, Xəzər sahilindən çoxlu albanlar, onlara qonşu olan iberlər axışıb gəldilər. Onlara Araz sahilindən gəlmiş çoxlu sayda azad tayfalar da qoşuldular" (9, 568).

Qüvvələr nisbətinə görə üstünlük müttəfiqlərdə olsa da döyüş meydanında Roma qalib gəldi. Plutarxın məlumatlarını şərh edən K.V.Trever qeyd edir ki, bu Qafqaz xalqlarının, o cümlədən alban və gürcülərin yadelli işğalına qarşı birgə mübarizəsini əks etdirən ilk faktdır (6, 84-85).

Bu qələbədən sonra Lukull uğurlarını davam etdirə bilmədi. Belə ki, VI Mitridat, Atropatena hökmdarı Mitridat və II Tiqran tərəfindən toplanmış iber, mard və atropatenlilərdən ibarət ordu e.ə. 68-67-ci illərdə Lukull üzərində bir neçə qələbə qazandılar. E.ə. 68-ci ilin payızında Lukull Artsaniya sahilindəki savaşda məğlubiyyətə uğradı. Plutarx və Dion Kassinin məlumatlarına görə bu savaşda atropatenlilərdən təşkil olunmuş süvari qoşunlar xüsusi igidlik göstərmişdilər (9, 573-574). Bu savaşdan sonra qışın yaxınlaşması və orduda baş verən narazılıqla əlaqədar Lukull qərbə- Mesapotamiyaya qayıtmaq məcburiyyətində qaldı. E.ə. 67-ci ildə Atropatena hökmdarı Mitridat və II Tiqran Kappadokiyanı qarət etdilər (1, 288; 9, 576). Bu uğursuzluqdan sonra Senat Lukullu geri çağırdı və e.ə. 66-cı ildə onun yerinə Qney Pompey Şərq əyalətlərinin canişini və Roma qoşunlarının baş komandanı təyin olundu.

***Albaniya və İberiyanın Pompeyə qarşı mübarizəsi***. Savaşa ciddi hazırlıq görən Pompey müttəfiqlərinin yardımçı qüvvələri istisna olmaqla, 40-50 minlik ordu və 400 gəmidən ibarət donanma hazırlamaqla yanaşı, Parfiya dövləti ilə də ittifaq bağlayaraq onu VI Mitridatın müttəfiqi II Tiqrana qarşı savaşa başlamağı bacardı (5, 161).

Hərbi-siyasi durumun dəyişməsi II Tiqranla VI Mitridat arasında münasibətlərin soyuqlaşmasına gətirib çıxardı. Təcrid olunan Mitridat e.ə. 66-cı ildə Nikopol yaxınlığında Pompey tərəfindən məğlub edildikdən sonra II Tiqranın yanına qaçsa da, kürəkəni nəinki ona sığınacaq verməkdən imtina etdi, hətta onun başı üçün 100 talant mükafat təyin etdi (10, 82; 12, 609). Çıxılmaz vəziyyətdə qalan VI Mitridat Kolxida istiqamətində qaçmağa məcbur oldu. (10, 82; 13, 529; 11, 609-610). Döyüş meydanında tək qalan II Tiqran isə Pompeyin hüzuruna gələrək təslim olmaq məcburiyyətində qaldı. (10, 611).

Pompeyin Kolxida yürüşü Albaniya və İberiya torpaqlarından keçirdi. Antik qaynaqlarda və albanşünaslıqda Pompeylə albanlar arasında toqquşmalar ətraflı şəkildə təsvir olunduğu və araşdırıldığı üçün bu məsələ üzərində detallı dayanmağa lüzum olmasa da, bəzi məqamlara toxunmaq zərurəti vardır. İlk növbədə onu qeyd etmək lazımdır ki, Gürcüstan tarixşünaslığında bəhs olunan dövrdə Albaniyanın sosial-iqtisadi və siyasi inkişaf baxımından İberiyadan geri qalması iddiası yer almışdır. Belə ki, "Gürcüstan tarixinin oçerkləri" kitabının müəllifləri Pompeyin alban və iberlərlə savaşının nəticələrini şərh edərkən yazırlar: "Çox ehtimal ki, Gürcüstan çarı və alban tayfalarının başında duran Oroys Romanın dostu və müttəfiqi elan olundular" (2, 193). Bununla da gürcü tarixçiləri e.ə. I yüzilliyin 60-cı illərində İberiyada dövlətin olması, albanların isə tayfa ittifaqı şəklində yaşamasını göstərmək istəyirlər. Albaniyada dövlətin hələ e.ə IV-III əsrlərdə mövcud olması haqqında arqumentlərə toxunmadan qeyd etmək istərdik ki, gürcü tarixçiləri nədənsə Plutarx, Appian, Strabon, Dion Kassi və s. kimi antik yazarların Oroysu Alban çarı adlandırmalarını görməzdən gəlirlər (10, 83; 12, 531; 11, 611; 8, 476).

Digər tərəfdən antik qaynaqlarda Pompeyin alban və iberlərlə savaşının səbəbləri ilə də bağlı fərqli mülahizələr yer almaqdadır. K.V. Trever Tit Liviyə istinad edərək yazır ki, alban və iberlər Pompeyə öz ərazilərindən keçməyə icazə vermədikləri üçün savaş qaçılmaz olmuşdu (6, 87-88). Görünür albanlar II Tiqranın oğlu Tiqrana öz ərazilərində sığınacaq verdiklərindən, iberlər isə VI Mitridata maneəsiz öz ərazilərindən keçməyə icazə verdikləri üçün Romanın qəzəbinə tuş gələcəklərindən ehtiyat etdiklərinə görə bu cür davranmışdılar. Tit Lividən fərqli olaraq Plutarxın məlumatına görə isə albanlar əvvəlcə Pompeyə öz ərazilərindən keçməyə icazə versələr də, sonra vədlərinə xilaf çıxaraq Roma ordusuna hücum etmişdilər (10, 83). Bu məqama toxunan Appian yazır ki, Pompey yürüş edərkən qonşu tayfalar onu mehribancasına qarşılamış, Alban çarı Oroys və İberiya çarı Artak 70 minlik qoşunla Kür çayı sahilində ona tələ qurmuşdular (13, 531). Dion Kassinin məlumatlarına görə isə Alban çarı Oroys bir tərəfdən dostu kiçik Tiqranı qorumaq, digər tərəfdən Roma ordusunun Albaniyaya soxulmasından ehtiyat edərək qış fəslindən yararlanıb qəflətən Pompeyin ordularına hücum edərək əlverişli nəticə əldə etmək istəyirdi (11, 611-612). Mənbələrin məlumatlarının araşdırılması göstərir ki, albanlar və iberlər öz müstəqillikləri üçün təhlükə sandıqlarından Roma ordusuna qarşı müqavimət taktikasına üstünlük vermişdilər.

Alban hökmdarı Oroys e.ə. 66-cı ildə 40 minlik ordu ilə Kür sahilində saturnali bayramının qeyd edildiyi vaxt üç hissəyə bölünmüş Roma ordusunun üzərinə hücum etsə də, uğur qazana bilmədi. Bu savaşda qalib gələn Pompey Oroysla sülh bağladıqdan sonra İberiyaya doğru hərəkət etdi (10, 83; 11, 612; 12, 531). Pompeyin İberiyaya yürüşü haqqında Plutarxın əsərində olduqca qısa məlumat qorunub saxlanmışdır. Onun yazdığına əsasən, Pompey böyük savaşda iberləri ağır məğlubiyyətə uğradaraq onların 9 min əsgərini öldürdü, 10 mindən artıq əsir götürərək Kolxidaya doğru getdi və Fasis sahilində Pontu mühafizə edən Servilinin donanması ilə görüşdü (10, 83). Plutarxdan fərqli olaraq Dion Kassi Pompeyin İberiyaya yürüşünü daha ətraflı qələmə almışdır. Dion Kassi yazır ki, Pompey Lusi Kott və Lusi Torkvatın konsulluğu ilində (e.ə. 65) əvvəlcə iberlər, sonra isə albanlarla vuruşdu (11, 612). Salnaməçinin məlumatlarına əsasən, İberiya çarı Artak Pompeyin hücumundan ehtiyat edərək dostluq qurmaq məqsədilə ona elçilərini göndərsə də, qəflətən onlara basqın etmək üçün hazırlıq görməyə başladı (11, 612-613). Artakın əsl niyyətini başa düşən Pompey ləngimədən onun ölkəsinə hücum edərək Akropol adlanan şəhərə yaxınlaşdı. Qorxuya düşən Artak çayı keçdikdən sonra körpünü yandırmaqla özünü xilas etsə də, onun ordusu məğlubiyyətə uğradı, Pompey əsas keçidləri ələ keçirərək ora nəzarətçilərini təyin etdi (11, 613). Dion Kassinin Akropol adlandırdıqları şəhərin İberiyanın paytaxtı Armazçixe olduğu şübhə doğurmur (2, 192). Kürün sol sahilinə çəkilən İberiya hökmdarı Artak öz elçilərini Pompeyin hüzuruna göndərərək sülh təklif etmiş, hətta Roma ordusunu ərzaqla təmin etməyə razı olsa da, onun təklifi qəbul edilməmişdi (11, 613). Dion Kassinin yazdığına görə, Artak Pompeyin çayı keçdiyini gördükdə qorxuya düşərək Pelor çayını adlayaraq çayın üzərindəki körpünü də yandırdı

(11, 613). Qaynaqda adı çəkilən Pelor çayının müasir Araqvi çayı olduğu güman edilir (2, 192). Təqibin davam etdiyini görən Artak yenidən Pompeylə danışıqlara girərək ona hədiyyələr göndərmək qərarına gəldi. Pompey hədiyyələri qəbul etsə də, sülhün bağlanması üçün Artakın öz övladlarını girov olaraq göndərməyini tələb etdi. Yay fəslinin yaxınlaşması ilə Pelor çayını keçməyin asanlaşdığını başa düşən Artak öz övladlarını girov kimi göndərərək Pompeylə sülh bağlamaq məcburiyyətində qaldı (11, 613-614). Beləliklə, Pompey İberiyanı da itaətə gətirdikdən sonra VI Mitridatın təqibini davam etdirərək Fasis (Rioni) çayının hövzəsi boyu hərəkət edərək, kolxların da müqavimətini qırdı. Kolxidanı ələ keçirib Fasis şəhərinə gəlib çatdı və burada Pontu qoruyan Publi Servilinin donanması ilə qarşılaşdı (11, 614; 10, 83). Pompey Fasisdə olarkən VI Mitridatın Bosfora keçərək orada öz oğlu Maxarı devirərək hakimiyyəti ələ aldığını öyrəndikdən sonra, təqibi dayandırmaq qərarına gəldi (11, 614). Maraqlıdır ki, Dion Kassi Pompeyin hansı səbəbdən yenidən albanlara qarşı hücum etməsinin səbəbini göstərməmişdir. Dion Kassidən fərqli olaraq Plutarx Pompeyin Albaniyaya yenidən yürüş etməsinin səbəbini albanların qiyam qaldırması ilə əlaqələndirsə də, bu qiyamın təfərrüatlarına toxunmamışdır (10,84). Araşdırmalar göstərir ki, Pompeyin Albaniyaya növbəti yürüşü ilk marşurutundan (Göyçə gölü yaxınlığından Dilican dərəsi boyu Kür çayına doğru – müasir Ağstafa istiqamətində) fərqli olaraq daha uzaq və çətin dairəvi yolla təşkil olunmuşdu. Dion Kassi yazır ki, Pompey albanları qəfil yaxalamaq üçün ən qısa yolla deyil, başqa bir uzaq ərazidən keçməklə yürüşə başladı (11, 614). Dion Kassinin məlumatına görə, Pompeyin hərbi hiyləsinə aldanan Oroys məğlubiyyətə uğradı, sağ qalaraq meşəyə qaçan alban döyüşçüləri isə meşənin yandırılması nəticəsində tələf oldular (11, 615). E.ə. 65-ci ildə Alazan çayı sahilində baş vermiş bu savaşı Plutarx bir qədər fərqli təsvir edir. Salnaməçinin yazdığına görə düşmənə qarşı çıxan Pompey onları Abant çayı sahilində döyüşə hazır vəziyyətdə tapmışdı. Lakin 60 min piyada və 12 min süvaridən ibarət olan alban ordusu pis silahlanmışdı və onların geyimi vəhşi heyvan dərisindən ibarət idi (10,84). Plutarxa görə alban ordusuna çarın Kosid adlı qardaşı başçılıq edirdi və savaşda Pompey onu qətlə yetirdi. Salnaməçinin yazdığına əsasən, bu savaşda deyilənlərə görə Fermodont çayı sahilindəki dağlarda yaşayan amazonkalar da iştirak edirdi (10, 84). Savaşdan sonra Pompeyin Xəzər dənizinə doğru irəlilədiyini, dənizə üç günlük məsafəyə qədər yaxınlaşdığını, lakin zəhərli sürünənlərə görə yürüşü dayandıraraq Sofenaya qayıtdığını qeyd edən Plutarx, onun albanlarla hər hansı bir barışıq bağladığını göstərməmişdir (10, 84). Bu savaşda amazonkaların iştirakı, alban döyüşçülərinin meşədə romalılar tərəfindən yandırılması Appian tərəfindən də qeydə alınmışdır (12, 531). Həmin savaşın yekunlarına toxunan Dion Kassi yazır ki, Pompey albanlarla sülh bağladı, Qafqazdan Xəzər dənizinədək olan ərazilərdə yaşayan tayfalarla elçilik vasitəsilə barışıq imzaladı (11, 615). Alazan savaşı zamanı Alban hökmdarı Oroysun harada olması və nədən savaşa qatılmaması haqqında dövrün qaynaqlarında tutarlı məlumatlara təsadüf olunmasa da, tarixşünaslıqda müxtəlif ehtimallar irəli sürülmüşdür (6, 98-100; 13).

K.V. Trever II və IV əsr salnaməçiləri Flor və Evtropinin məlumatları əsasında belə bir qənaətə gəlir ki, Alazan döyüşündən sonra Oroys Pompeyin onun hüzuruna gəlmək tələbindən imtina etsə də, öz elçilərini Pompeyin düşərgəsinə qiymətli hədiyyələrlə (o cümlədən, qızıl taxt) göndərərək barışıq bağlamışdı (6, 100-101). Beləliklə, Pompeyin e.ə. 66-65-ci illər yürüşü zamanı Cənubi Qafqaz, o cümlədən Albaniya və İberiya dövlətləri müvəqqəti olsa da Roma imperiyasının nəzarəti altına düşmüşdü. Pompeyin Şərq yürüşü başa çatdıqdan sonra Romada onun uğurları şərəfinə iki gün davam edən təntənəli triumf mərasimi təşkil edilmişdi. Triumf tədbirlərində iştirak edən Pompey tərəfindən məğlub edilmiş dövlət və xalqların təmsilçiləri haqqında Plutarx və Appianın əsərlərində ətraflı məlumatlara rast gəlirik. Plutarxın yazdığına görə, triumf Pont, Kappadokiya, Paflaqoniya, Midiya, Kolxida, iberlər, albanlar, Suriya, Kilikiya, Mesapotamiya, Finikiya və Fələstin tayfaları, İudeya, Ərəbistan, həmçinin quru və dənizdə qəti məğlub edilən quldurlar üzərində qeyd olunurdu (10, 89). Salnaməçi triumfda Ermənistan çarının oğlu Tiqranın, onun arvadı və qızının, II Tiqranın arvadı Losimanın, yəhudilərin çarı Aristobulun, Mitridatın bacısının, onun 5 övladının, skif qadınlarının, daha sonra əsir götürülmüş alban və iberlərin, Kommogen çarının iştirak etdiyini vurğulamışdır (01, 89). Plutarxdan fərqli olaraq Appian triumf mərasimində kolxların çarı Oltakın, iberlərin 3, albanların 2 hegemonunun da iştirak etdiyini göstərmişdir (12, 537). Pompeyin yürüşü zamanı Albaniyanın və İberiyanın qəti şəkildə Romanın nüfuz dairəsinə daxil edilməsini söyləmək mümkün deyildir. Heç şübhəsiz ki, bu dövlətlərin Roma dövlətindən asılılığı formal xarakter daşıyırdı və Roma sərkərdəsi Kanidinin təqribən 20 il sonra

Albaniya və İberiyaya növbəti yürüşü də bu ölkələrin az sonra Roma tabeliyindən imtina etdiyinin göstəricisidir (11, 620).

***Nəticə.*** Araşdırmalar göstərir ki, Roma dövlətinin Cənubi Qafqazla ilk genişmiqyaslı təması bilavasitə, III Mitridat müharibəsi ilə əlaqədar olmuşdur. VI Mitridat və onun müttəfiqi II Tiqranın Ön Asiya və Şərqi Aralıq dənizi sahillərində Roma dövlətinin hərbi-siyasi maraqları üçün təhlükə yaratması Lukull və Pompeyin şərq yürüşünün əsas səbəbi olmuşdur. Cənubi Qafqaz dövlətləri və xalqları, o cümlədən Albaniya və İberiya Roma təhlükəsini özləri üçün təhdid hesab etdiklərindən Roma ilə Pont çarlığı arasındakı qarşıdurmada sonuncunun tərəfini tutmaq siyasəti yürütmüşdülər.

Pompeyin e.ə. 66-65-ci il Cənubi Qafqaz yürüşləri zamanı Albaniya və İberiya əhalisi yadellilərə qarşı ciddi müqavimət göstərsələr də, uğur qazana bilməyərək formal olsa da, Roma imperiyasına itaət etmək məcburiyyətində qalmışdılar.

Qeyd etmək lazımdır ki, Pompeyin Cənubi Qafqaza yürüşünü yalnız Pont hökmdarı VI Mitridatın təqib edilməsi, Roma dövlətini hərbi-siyasi maraqları, yeni-yeni əraziləri zəbt etmək istəyi ilə məhdudlaşdırmaq doğru olmazdı. Pompeyin Cənubi Qafqaz yürüşünün marşurutunun Hindistanı Xəzər dənizi və Kür çayı vasitəsilə Qara dənizlə birləşdirən qədim ticarət yolu boyu keçməsi göstərir ki, Roma həm də bu beynəlxalq ticarət marşurutuna nəzarəti ələ keçirmək istəyirdi. Heç şübhəsiz ki, Pompey Patroklun Xəzər dənizinə təşkil etdiyi ekspedisiyanın hesabatları ilə də yaxından tanış idi. Bu ticarət yolu haqqında antik qaynaqlarda da məlumatlara rast gəlmək mümkündür (8, 480; 17, 189). Hindistanı Xəzər dənizi-Kür çayı vasitəsilə Qara dənizlə birləşdirən qədim ticarət yolu bir sıra tarixçilər tərəfindən də araşdırma obyektinə çevrilmişdir (14, 161-180; 15).

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (ən qədimdən b.e. III əsri). Bakı, Elm, 1998, 476s.
2. Очерки истории Грузии / под ред. Г.А.Меликишвили, О.Д.Лордкипанидзе. Т.I, Тбилиси, Мецниереба, 1989, 309 с.
3. Moisey Kalankatuklu, Albaniya tarixi. Mixitar Qoş. Alban Salnaməsi. Bakı, "Avroasiya press", 2006, 296 s.
4. Мровели Леонти. Жизни Грузинских царей.- Картлис Цховреба (История Грузии) Под. ред. акад. Р.Метревели. Баку, East-West, 2012, с.13-44.
5. История древнего Рима, Издание. 2. Под.ред. В. И. Кузищина. М., Высш.школа,1981, 336 с.
6. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в.н.э. – VII в.н.э.). Москва, Ленинград: Изд – во АН ССР, 1959, 389 с.
7. История армянского народа. Под ред. Б.Н. Аракеляна и А.Р. Иоаннисяна. Ереван, Айпетрат, 1951, 291 с.
8. Страбон. География в 17 книгах. Пер. А.Стратановского. М.: Наука, 1964, 943 с.
9. Плутарх. Сравнительные жизнеописания: в 2-х т. Т I, М.: Наука, 1994, 712 с.
10. Плутарх. Сравнительные жизнеописания: в 2-х т. Т II, М.: Наука, 1994, 674 с.
11. Дион Кассий Римская История. - Известия древних писателей греческих и латинских о Скифии и Кавказа. Пер.В.В.Латышев. Санкпетербургъ: Типография императорской Академии наук, 1890, с.609-639.
12. Аппиан. Войны сь Митридатомь.- Известия древних писателей греческих и латинских о Скифии и Кавказа. Пер. В.В. Латышев. Санкпетербургъ: Типография императорской Академии наук, 1890 с. 526-539.
13. Джавадов И. Ш. Кавказская Албания и международные отношения середины I в. до н.э. Автореферат канд. дисс. М., 1973, 20 с.
14. Ямпольский З.И. К изучению древнего пути из Каспийского моря по реке Куре через Грузию к Черному морю. - Тр. ИИ АН Груз. ССР, Тифлиси, Т.II, 1956, с.161-180.
15. Манандян Я.А. - О торговле и городах Армении в связи с мировой торговлей древних времен. Ереван; Изд.-во Ереванского университета: 1954, 346 с.
16. Плиний Старший. Естественная история. к. VI Под общей редакцией А.В.Подосинова. - Вестник древней истории. 78/1, 2018 с. 160-189

17. Алиев И. Очерк истории Атропатены. Баку, АГУ, 1989, 160 с.
18. Алиев К.Г.Кавказская Албания.(I в.до н.э.-Iв.н.э.) Баку, Элм, 1974, 363 с.
19. Fazili A.H.Atropatena e.ə. IV-e.VII əsri. Bakı, Elm, 1992, 216 s.
20. Джавадов И.Ш. О сражении Кавказских албанцев и иберов против римлян в 66 году до н. э.-Вестник древней истории, 1973, №1, с.154-159.

**ЭЛЬМИН МАМЕДЛИ**
*Докторант Института истории и этнологии НАНА*

**АЛБАНИЯ И ИБЕРИЯ В ПЕРИОД III МИТРИДАТОВОЙ ВОЙНЫ (74-64 гг. до н.э.)**

В статье объектом исследований стал походы Римских полководцев Л.Лукулла и Г.Помпею в Южный Кавказ во время III Митридатовой войны в I в. до н.э. На основе сведений античных источников было проанализирована совместная борьба народов Албании и Иберии против иноземных захватчиков, поскольку этот вопрос, особенно участие Иберийского царства в Азербайджанской историографии должным образом не рассматривался. Кроме того, был опровержен тезис грузинских историков об отсутствии государственности в Албании в середине I в. до н.э.

*Ключевые слова:* Митридатова война, Римское государство, Албания, Иберия, Оройс, Артак.

**ELMIN MAMMADLI**
*Doctoral student of the Institute of History and Ethnology of ANAS*

**ALBANIA AND IBERIA DURING THE III MITHRIDATIC WAR (74-64 BC)**

In the article, the object of research was the expeditions of the Roman commanders L. Lucullus and G. Pompei to the South Caucasus during the 3rd Mithridatic War in the 1st century BC. Based on information from ancient sources, the joint struggle of the peoples of Albania and Iberia against foreign invaders was analyzed, since this issue, especially the participation of the Iberian Kingdom, was not properly considered in Azerbaijani historiography. In addition, the thesis of Georgian historians about the lack of statehood in Albania in the middle of the 1st century was refuted. BC.

*Keywords:* Mithridatic War, Roman State, Albania, Iberia, Oroys, Artak.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 may 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d. Tofiq Mustafazadə, t.e.d. Qabil Əliyev.*